**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ
ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**САМИР ТОФИК ОГЛУ ДЖАФАРОВ**

# ВОПРОС НАЦИОНАЛЬНЫХ ГОСУДАРСТВ И ИХ СУВЕРЕНИТЕТА В УСЛОВИЯХ СОВРЕМЕННЫХ ГЛОБАЛЬНЫХ ПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ

**Специальность: 5904.01 – «Политические институты и системы»**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени
доктора философии по политическим наукам**

**Баку-2014**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**SAMİR TOFİK OĞLU CƏFƏROV**

# MÜASIR QLOBAL SİYASİ PROSESLƏR ŞƏRAİTİNDƏ MİLLİ DÖVLƏTLƏR VƏ ONLARIN SUVERENLİYİ MƏSƏLƏSİ

**İxtisas: 5904.01 – «Siyasi institutlar və sistemlər»**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

İş AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun “Politologiya və siyasi sosiologiya” şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** fəlsəfə elmləri doktoru, professor
**Ə.M.Tağıyev**

**Rəsmi opponentlər:** fəlsəfə elmləri doktoru, professor
**Z.C.Hacıyev**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**R.Z.Rəhimli**

**Aparıcı təşkilat:** Bakı Slavyan Universitetinin “Azərbaycan tarixi və ictimai elmlər” kafedrası

Müdafiə «__09___» ___12_____2014-cü il saat________-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1001, Bakı şəhəri, M.Lermontov küçəsi, 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «_____»_____________ 2014-cü ildə göndərilmişdir.

**FD 02.101 Dissertasiya Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent** **S.İ.Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı**. Müasir dövrdə siyasət ənənəvi milli sərhədləri aşaraq, milli dövlət maraqlarını beynəlxalq münasibətlərdə müzakirə mövzusuna çevrilir ki, bu da hər hansı bir milli dövlətin beynəlxalq maraqları nəzərə almadan siyasət yürütməsini mümkünsüz edir. Bundan başqa, mövcud reallıqlar dünya dövlətlərinin ancaq sıx təmaslarda mövcudluğunu şərtləndirir.

Əgər qloballaşma XX əsrin ortalarında əsasən iqtisadi elmlərin tədqiqat obyekti idisə, əsrin sonlarına doğru daha çox siyasi əhəmiyyətini artıraraq həm siyasi-nəzəri, həm də dünya siyasi praktikasında aparıcı inkişaf strategiyasına çevrilməyə başladı. Artıq bu dövrdən başlayaraq sanki qlobal iqtisadi məqsədlər qlobal siyasi maraqlarla əvəz olunur və siyasi qloballaşma erası start götürürdü. Məsələn, qitədə siyasi stabillik məqsədilə yaradılan Avropa İqtisadi Birliyinin əsas nüvəsini iqtisadi inteqrasiya təşkil edirdisə, əsrin sonlarında bu qurumun özünə müxtəlif inkişaf səviyyəsinə malik dövlətləri üzv qəbul etməklə genişlənməsini sırf siyasi məqsədlərdən irəli gəldiyini qeyd etmək üçün kifayət qədər əsas vardır.

Ümummilli lider Heydər Əliyev bu proseslərin əhəmiyyətinə toxunaraq qeyd edirdi: «Qloballaşma müasir dünyanın inişafının əsas meyli kimi çıxış edir. Qloballaşma prosesi heç də həmişə optimizmin təstiq olunması ilə müşaiyyət olunmur. Bu mürəkkəb və çoxmənalı prosesin prespektivləri bizim hamımızı dərindən düşünməyə vadar edir».[1]

Qloballaşmanın siyasi xarakter kəsb etməsində mövcud beynəlxalq tarixi şəraitin rolu da danılmazdır. Belə ki, XX əsrin sonlarında SSRİ-nin dağılması ilə dünya sosializm sisteminin iflası qloballaşmanın siyasiləşməsinə yol açan əsas məqamlardan biri kimi nəzərdən keçirilə bilər. Dünya sosializm sisteminin dağılması ilə soyuq müharibə başa çatmışdır və bu, eyni zamanda, birqütblü dünya sisteminin yaranmasını şərtləndirmişdir. Artıq dünya iqtisadiyyatında lider olan milli dövlətlər eyni zamanda siyasi hegemonluq iddiasında idilər. Onlar öz milli dəyərlərini qlobal dəyərlər adı altında kiçik, zəif və yeni yaranmaqda olan müstəqil dövlətlərə qəbul etdirməyə çalışırdılar.

Qloballaşma prosesi dövrümüzün artıq hamı tərəfindən qəbul edilən reallığı olmaqla, milli dəyər və milli mədəniyyətlərin qorunması, cəmiyyətin bütövlüyünün və möhkəmliyinin təmin olunması məsələlərinə daha həssaslıqla yanaşmağı tələb edir. Qloballaşma prosesində milli dövlətlər bu prosesin milli mədəniyyətə təzyiqlərini hiss etməkdədirlər. Qloballaşma tərəfdarları yaxşı başa düşürlər ki, milli dövlətlərə təzyiqin artırılması üçün milli mədəniyyətlərin unifikasiyası çox vacib və eyni zamanda çox çətin başa gələ biləcək bir prosesdir. Siyasi, iqtisadi və sosial sahələrdə asanlıqla baş verən qloballaşmanı, mədəni sahədə həyata keçirmək elə də asan və itkisiz başa gəlməyəcəkdir. Ona görə də, müasir milli dövlətlərdən qloballaşma ilə özlərinin milli mədəniyyətləri arasında təmas xətlərinin apılması tələb olunur. Bu istiqamətdə elmi-tədqiqat işlərinin aparılması həm də, qeyd edilən məqamlara müəyyən aydınlığın gətirilməsi nöqteyi-nəzərindən əhəmiyyətlidir.

Müasir milli dövlətlərin qarşısında duran mürəkkəb vəzifələrdən biri də milli suverenlik və milli varlığını, milli dəyər və mentaliteti itirmədən beynəlxalq qlobal sistemə qoşulmaqdan ibarətdir. Qeyd etmək lazımdır ki, "qloballaşmaya qoşulub və ya qoşulmamaq" sualı artıq müasir milli dövlətlərin müzakirə obyekti deyil. Çünki, bu proses artıq başlamışdır və sürətlə dərinləşməkdədir. Ona görə də, əsas məsələ qlobal siyasi proseslərə hansı əsaslarla və necə qoşulmaqdan ibarətdir. Bu baxımdan, qeyd etmək lazımdır ki, hər bir milli dövlət qloballaşmaya onun müsbət və mənfi meyllərini təhlil və tədqiq edərək, şüurlu və düşünülmüş şəkildə qoşulmağa cəhd göstərir. Bu zaman əsas məsələ dünyaya açılmaqla yanaşı, milli mənsubiyyəti və milli suverenliyi qoruyub saxlamaqdan ibarətdir. Söylədiklərimizə bariz nümunə kimi Azərbaycan Respublikasında qlobal siyasi proseslər şəraitində həyata keçirilən milli dövlət quruculuğu siyasətini göstərə bilərik. Milli dövlət müstəqilliyini qlobal dünya siyasətində qazanılan uğurların vacib şərti sayan Ümummilli lider Heydər Əliyev qeyd edirdi:" Azərbaycanda dövlət müstəqilliyi dönməz olubdur. Ölkəmiz dünya miqyasında, beynəlxalq aləmdə özünə layiq yerini tutur. Bunlar hamısı Azərbaycanın dövlət müstəqilliyinin

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 30 cilddə., 4-cü Kitab. Bakı, Azərnəşr, 2010, s.19

nəticəsidir”[2]. Ona görə də hər bir milli dövlət qloballaşmaya milliliyin aradan qaldırılması kimi deyil, onun çiçəklənməsi və inkişafına, beynəlxalq nüfuzunun artmasına aparan yol kimi yanaşmağa çalışır. Bu cür yanaşma milli dövlətlərə hər hansı bir hegemon dövlətin müəyyən etdiyi qaydaların təsiri altına düşmədən beynəlxalq aləmdə müstəqil və özünəməxsus siyasət yürütməyə imkan verə bilər.

Ümumiyyətlə, tədqiqatın aktuallığını şərtləndirən məqamları aşağıdakı kimi müəyyənləşdirmək olar:

1.Müasir dünyada müxtəlif milli dövlətlərin qarşılıqlı asılılıq və qarşılıqlı əlaqə səviyyələrinin yüksəlməsinin beynəlxalq münasibətlər sistemində ciddi qlobal meylli dəyişikliklərlə müşaiyət olunması;

2. Qlobal siyasi proseslərin gedişində meydana çıxan mürəkkəb və həlli çox çətin olan problemlərin mövcud dünya nizamında bir sıra dəyişikliklər etmək və yaxud yeni dünya nizamı yaratmaq meyllərinin aktuallaşması;

3. Qlobal siyasi proseslər şəraitində milli dövlətlərin ideoloji sahədə problemlərlə qarşılaşması (mədəni homogenezasiya və qlobal mədəniyyətin yaradılması cəhdləri);

4. Qloballaşma şəraitində müasir milli dövlətlər tərəfindən özlərinin milli dəyərlərinin, mədəniyyətlərinin, müstəqilliklərinin, bir sözlə, milli özünəməxsusluğun qorunması ilə bağlı daha mürəkkəb vəzifələrin yerinə yetirilməsi problemi;

5. Qloballaşmanın iqtisadi inteqrasiya ilə yanaşı, həm də siyasi və sosio-mədəni inteqrasiyanı da şərtləndirməsi. Bununla bağlı qeyd etmək lazımdır ki, Azərbaycanda milli dövlət və onun suverenliyi məsələlərinin qlobal siyasi proseslər fonunda öyrənilməsinin elmi nəzəri və elmi praktiki əsaslarının yaradılmasına XX əsrin 90-cı illərindən etibarərən başlanılmışdır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən, xüsusilə də, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə fəal şəkildə dünya inteqrasiya proseslərinə qoşulmağa başladı. Belə şəraitdə Respublikamızın suveren dövlət kimi qlobal məkana uğurlu inteqrasiyası üçün bu prosesin nəzəri-siyasi əsaslarının işlənilməsi tələb olunurdu ki, bu da həmin problemin aktuallığını şərtləndirirdi;

[2] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Elm, 2005, s.386

6. Beynəlxalq münasibətlər arenasında yeni aktorların meydana gəlməyə başlaması və onların milli dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlarla yanaşı, dünyada cərəyan proseslərə öz təsirini gücləndirməsi (transmilli korporasiyalar, qeyri hökumət təşkilatları, fondlar və assosiasiyaların meydana gəlməsi sürətlənirdi).

Beləliklə, göründüyü kimi, təqdim olunan dissertasiya müstəqil Azərbaycan dövlətçiliyinin inkişafı baxımından xüsusi nəzəri və praktiki əhəmiyyət kəsb edən və müasir Azərbaycan siyasi elmi üçün aktual olan problemin tədqiqinə həsr olunmuşdur.

**Problemin işlənmə dərəcəsi**. Qloballaşma prosesinin elmi nəzəri əsaslarının hazırlanması, onun milli dövlətlərə təsiri istiqamətlərinin siyasi elm çərçivəsində əsaslı tədqiqinə ötən əsrin 90-cı illərindən başlanılmışdır. Qloballaşma şəraitində müasir dövlətlərin vəziyyəti və inkişaf perspektivləri C.Soros, Z.Bauman, E.Giddens, V.Bek, C.Hantinqton, Vallerstayn, H.Kissencer, D.Held, D.Qrey, P.Robertson, Z.Bjezinski, M.Kastels, C.Rozenau, K.Omae və digərləri tərəfindən ətraflı tədqiq edilmişdir.[3]

Qloballaşmanın mahiyyəti, müasir cəmiyyətlərə və ya milli dövlətlərə təsir istiqamətləri rusiyalı tədqiqatçılar tərəfindən də ciddi şəkildə araşdırılmışdır. Belə tədqiqatçılardan V.İ.Pantini, A.S.Panarini, V.L.İnozemtsevi, V.B.Kuvaldini, A.N.Çumakovu və digərilərini qeyd etmək olar. tərəfindən tədqiq edilmişdir.[4]

Azərbaycan alimlərindən R.Mehdiyev, Y.Rüstəmov, A.Şükürov, İ.Məmmədzadə, S.Xəlilov, H.Babaoğlu, Ə.Tağıyev, E.Aslanov, Ə.Hüseynov, K.Məmmədov və b. əsasən XX əsrin sonundan başlayaraq

[3] Сорос Дж. Открытое общество: Реформируя глобальный капитализм. М., 2001, с. 354.; Бауман З. Глобализация. Последствия для человека и общества. М., «Озон», 2004, с.97.; Гидденс Е. Навстречу глобальному веку. Отечественные записки. 2002, №6, с.445.; Бек У. Что такое глобализация? М., Прогресс-Традиция, 2001, с. 304; Валерстайн И. Америка и мир: сегодня, вчера, завтра. М., Свободная мысль, 1995, №4, с.75; Валерстайн И. Конец знакомого мира. Социология XXI века. М., «Логос», 2003, с.349; Киссинджер Г. Нужна ли Америке внешняя политика? Москва, 2002, с.256.

[4] Пантин В.И. Циклы и волны глобальной истории. Глобализация в историческом измерений. М., 2003, с. 276; Панарин А.С. Глобальное политическое прогнозирование. М., «Алгоритм», 2000, с.142.; Кувалдин В.Б. «Глобализация – светлое будущее человечества», «Независимая газета - сценарии», 2000, 11 октября; Чумаков А.Н. «Глобализация: контуры целостного мира». М.: «Проспект», 2008, стр.287, стр 362.

xalqımız müstəqillik əldə etdiyi dövrdən qloballaşma prosesi, qlobal siyasi proseslər fonunda milli dövlətçilik və milli suverenlik problemləri, qloballaşma və milli dövlətin qarşılıqlı əlaqə və qarşılıqlı təsir mexanizmləri, millilik və qloballaşma, qlobal məkanda milli dövlətin yeni funksiyaları ilə bağlı geniş tədqiqat aparmışlar.[5]

Akademik Ramiz Mehdiyev qlobal siyasi proseslərin təhlilinə həsr olunmuş silsilə kitabları qloballaşma prosesində Azərbaycan Respublikasının iştirakının elmi-nəzəri və elmi-praktiki əsasları kimi çıxış edirlər. R.Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" adlı monoqrafiyası mövzunun tədqiqi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Kitab əsasən qlobal siyasi proseslər şəraitində Azərbaycan milli dövlətçiliyinin təşəkkülü və inkişafı məsələlərinə həsr edilmişdir. Kitabda qloballaşan dünyanın yeni reallıqları fikir süzgəcindən keçirilərək özünəməxsus şəkildə tədqiq edilir, müasir Azərbaycan dövlətçiliyi qərbləşmə və modernləşmə fonunda geniş təhlil olunur. Bundan başqa, R.Mehdiyevin "Azərbaycan 2003-2008: zaman haqqında düşünərkən" adlı monoqrafiyasında da müasir qlobal siyasi proseslər şəraitində milli dövlətçiliyimizin təməl prinsipləri – milli maraqların qorunması, milli siyasət, milli qürur və milli ləyaqət, dini tolerantlıq məsələləri geniş tədqiq olunur, bu dövrün yeni siyasi mədəniyyət dialektikası və yeni paradiqmaları təhlil edilmişdir.

Professor R.Aslanova özünün "Qloballaşma və mədəni müxtəliflik" adlı kitabında qloballaşma prosesinin mədəniyyət sahəsində təzahürlərinin təhlilinə diqqət yetirmişdir[6]. R.Aslanovanın "XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya" adlı digər kitabında yeni əsrdə hansı mədəniyyət məkanında yaşadığımız, inteqrasiyanın hansı mədəni-mənəvi amillərlə şərtləndiyi geniş müzakirə olunur. Müəllif həmçinin inteqrasiyanın baş verdiyi "böyük məkanların nəzəriyyəsini, Azərbaycanda inteqrasiyanın genişlənən üfüqlərini tədqiq etmişdir.

Onu da qeyd etmək lazımdır ki, respublikamızın görkəmli alim və tədqiqatçılarının bu məsələyə həsr olunmuş əsərləri tədqiqat istiqamətinə görə fərqlənsələr də, məqsəd baxımından eyni, vahid leytmotivə malikdirlər: milli xüsusiyyətləri, milli dövlətçilik ənənələrini qorumaqla qlobal siyasi proseslərə qoşulmaq.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini qlobal-siyasi proseslər fonunda milli dövlət və onun suverenliyinin mahiyyəti və məzmunundan irəli gələn problemlərin nəzəri-praktiki aspektləri, predmetini isə bu problemin siyasətdə əhəmiyyəti və rolu təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işində qarşıya qoyulan məqsəd müasir qlobal siyasi proseslər şəraitində milli dövlət və onun suverenliyi problemini tədqiq etmək, bu prosesə təsir edən pozitiv və neqativ amilləri kompleks şəkildə araşdırmaqdan ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

– milli dövlətlərin mahiyyəti, təşəkkülü və inkişaf istiqamətlərinin tədqiqinin elmi nəzəri və metodoloji əsaslarının tədqiqi;

– qlobal siyasi proseslərin elmi-nəzəri və praktiki əsaslarının tədqiqi;

– milli suverenlik anlayışının ənənəvi və müasir qlobal siyasi tələblər baxımından tədqiqi;

– müasir dövrdə milli dövlət və qlobal siyasi proseslərin qarşılıqlı təsir mexanizmlərinin tədqiqi;

– müasir qlobal siyasi proseslər şəraitində milli dövlətlərin rolu və funksiyalarının tədqiqi;

– qlobal siyasi proseslərin böyük milli dövlətlərin maraqları kontekstindən tədqiqi;

– müasir milli dövlətlərin inkişaf perspektivlərinin tədqiqi;

– müasir Azərbaycan Respublikasında milli dövlət quruculuğu və qlobal dünya məkanına inteqrasiya proseslərinin tədqiqi.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Mövzunun işlənilməsi prosesində Azərbaycan Respublikasının Konstitusiyası, xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxış və nitqləri, Sərəncam və Fərmanları, problemlə bağlı

---

[5] Mehdiyev R. Azərbaycan: 2003-2008; zaman haqqında düşünərkən. Bakı: Şərq – Qərb, 2009, s. 240; Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı,XXI YNE, 2005, s.498; Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, XXI YNE, 2003, s. 672; Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. Bakı, XXI YNE, 2007, s. 672; Şükürov A. Qloballaşma: mahiyyəti və perspektivləri. Bakı: Adiloğlu, 2001, s. 171.; Ulusel Rahid S. Qloballaşma və harmoniya fəlsəfəsi. Bakı,Elm, 2005, s. 354; Babaoğlu H. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi. Bakı: Elm, 2007, s. 516; Hüseynov Ə. Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət qurucluğu / Millət və Dövlət"; 2008 may; №3; Məmmədov K. «Millət və millətçilik», ADPU, Bakı 2008, s.89; Tağıyev Ə. Millət və dövlət, Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası. Bakı: Səda, 2006, s.287; Tağıyev Ə. Siyasət dərsləri. Bakı: «ADPU», 2007, s.211.

[6] Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2007, s.289.

fundamental əsərlər, eləcə də Azərbaycan hökumətinin və Milli Məclisin qərarları, Respublika və beynəlxalq əhəmiyyətli elmi konfransların materialları elmi-nəzəri baza və mənbə rolu oynamışdır.

Tədqiqat zamanı siyasi elm sahəsində tətbiq edilən kompleks tədqiqat metodlarından istifadə edilmişdir. Bunlardan tarixi, komparavistika, funksional, ekspert təhlil, sistemli yanaşma və s. kimi metodları qeyd etmək olar. Problemin araşdırılmasında həmçinin beynəlxalq şəraitin təhlili metodlarından, xüsusilə müqayisəli və sistemli siyasi təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqat işinin yeniliyi**. Tədqiqatın elmi yeniliyi ilk növbədə problemin qoyuluşu ilə müəyyən edilir və aşağıdakı müddəalarda əks olunur:

– qloballaşma şəraitində milli dövlətlərin vəziyyəti və inkişaf meylləri problemi tədqiqata cəlb edilmişdir;

– milli suverenlik anlayışının ənənəvi və müasir əhəmiyyəti yeni dünya nizamı kontekstində araşdırılmışdır;

– qloballaşma və qərbləşmə kimi islahların mümkün qarşılıqlı əlaqə və qarşılıqlı təsir münasibətləri siyasi aspektdə tədqiq edilmişdir ;

– qloballaşma prosesinin müxtəlif mərhələlərində milli dövlətlərin suverenliyi məsələsi araşdırılmışdır;

– qlobal siyasi proseslər böyük milli dövlətlərin maraqları çərçivəsində tədqiq edilmişdir;

– Azərbaycan Respublikasının qlobal-siyasi proseslər gedişində dünya məkanına inteqrsiyasının mümkün inkişaf perspektivləri araşdırılmışdır.

**Dissertasiyanın nəzəri-praktiki əhəmiyyəti.** Tədqiqat materiallarından və əldə olunmuş nəticələrdən qlobal siyasi proseslərin, milli dövlətlərin müasir inkişaf istiqamətlərinin, qloballaşma prosesinin milli suverenliyə təsir mexanizmlərinin, müasir milli dövlətə qlobal siyasi proseslərin qarşılıqlı fəaliyyət və qarşılıqlı təsir vasitələrinin öyrənilməsində, nəhayət, müasir Azərbaycanın qlobal dünya məkanına inteqrasiya proseslərində iştirakının özünəməxsus strategiyasının tanıdılmasında mühüm vəsait kimi istifadə oluna bilər. Bundan başqa, tədqiqatların nəticələri oxşar mövzuların tətdqiqi zamanı da istifadə olunar.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun “Politologiya və siyasi sosiologiya” şöbəsində müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas məzmunu və elmi müddəaları müəllifin Azərbaycanda və xaricdə çap etdirdiyi elmi məqalələrində öz əksini tapmışdır.

**Tədqiqat işinin strukturu.** Dissertasiya işi giriş, iki fəsil, altı yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, Azərbaycan siyasi elmi üçün əhəmiyyəti göstərilir, problemin işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsədi, vəzifələri, nəzəri-metodoloji əsasları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti barədə məlumat verilir.

**I fəsil “Milli dövlət və qlobal siyasi proseslərin tədqiqinin nəzəri metodoloji əsaslari”** adlanır. Bu fəslin **“Milli dövlətin mahiyyəti, təşəkkülü və inkişaf meylləri”** adlanan birinci yarımfəslində ilkin olaraq dövlətin mahiyyəti izah edilir. Qeyd edilir ki, Dövlət xüsusi siyasi təsisat olmaqla cəmiyyətin siyasi sisteminin özəyini təşkil edir. Elmdə və beynəlxalq hüquqda dövlətin qəbul edilmiş ümumi təyinatı mövcud olmasa da, bunu dövlətin mili məzmunu haqqında söyləmək olmaz. Dövlət funksiyalarının milli məzmuna malik olması mühüm əhəmiyyət kəsb edir. Bu yarımfəsildə milli dövlətlərin meydana gəlməsi prosesi ətrafında geniş təhlillər aparılır. Əsaslandırılır ki, milli dövlət sisteminin başlanğıcı Otuzillik müharibəyə və Reformasiyaya son qoyan, beynəlxalq müqavilələrdə yeni dünya nizamının beynəlxalq hüquqi əsasını möhkəmləndirən Vestfal sülhündən sonra qoyulmuşdur. Həmin dövrdə yeni nizama: dövlət ərazisi daxilində dövlət hakimiyyətinin aliliyi, müstəqilliyi, sərbəstliyi, beynəlxalq davranışda müstəqillik, ərazi bütövlüyü və toxunulmazlığı daxil idi. Milli dövlətlərin yaranması təbii coğrafi və dil əlamətlərinə görə keçirilən yeni prinsipin təsdiqi demək idi. Xarici siyasətdə sülalə prinsipini yavaş-yavaş milli dövlət əvəz etməyə başladı. Milli dövlət ideyasını irəli sürən ziyalılar arasında alman filosofu İ.Herderin adına rast gəlinir. Herderdə milli dövlət ideyası təbii hüququn həyatiləşməsindən irəli gəlir və tamamilə pasifist xarakter daşıyır. İşğallar nəticəsində yaranan hər bir dövlət Herderdə dəhşət doğururdu. Onun fikrincə, bu cür dövlətlər mövcud olan milli mədəniyyətləri dağıdırlar, onların xalq ideyası bunda özünü büruzə verir. O, yalnız ailəni və ona

uyğun gələn dövlət formasını təbii sayırdı. Bunu milli dövlətin Herder forması adlandırmaq olar.

Milli dövlətin yaranması və inkişafında «millət» və «dövlət» kateqoriyaları ayrı-ayrılıqda xüsusi əhəmiyyət kəsb edir. Bir qrup tədqiqatçılar dövləti subyektlər tərəfindən istifadə olunan obyekt kimi, texniki struktur kimi qiymətləndirirlər. Subyekt kimi millətlər, tayfalar, klanlar, insan qrupları və ayrı-ayrı insanlar çıxış edə bilərlər. Dövlət xüsusi olaraq tapşırıq qoymur, dövlət qarşısında öhdəliyi onun sahibi qoyur. Dövlət öhdəliklərin yerinə yetirilməsi vasitəsi və alətidir. Milli dövlət şəraitində millət öz qarşısında öhdəlik qoyur və dövlətdən bu öhdəliklərin həllinin tapılmasını optimallaşdırma aləti kimi istifadə edərək özü onları həll edir. Milli öhdəliklərin çoxu həyat məkanının bölüşdürülməsi ilə əlaqəli olur, dövlət həyat məkanının əsas alətidir.

**Birinci fəslin "Qloballaşma – qlobal siyasi proseslərin inkişaf tendensiyası kimi"** adlanan ikinci yarımfəslində qloballaşmanın elmi dövriyyəyə daxil olaraq sürətlə tədqiqat obyektinə çevrilməsi prosesinə diqqət yetirilir. Nəzərə çatdırılır ki, siyasi elmdə keçən əsrin 80-ci illərindən daha geniş vüsət almağa başlayan «qloballaşma» anlayışı müasir dövrdə həm nəzəri, həm də praktiki şüarda dərin kök salaraq, bu elmin mərkəzi tədqiqat sahəsinə çevrilmişdir. Nəzəri konseptual baxımdan XX əsrdə formalaşan qloballaşma anlayışı tarixi-siyasi baxımdan dərin köklərə malik olsa da, onunla bağlı dəqiq və konkret formalaşmış bir fikir yoxdur. XX əsrin 90-cı illərində meydana gələn «qloballaşma» termini bu günkü izahından fərqli təfsir edilirdi. Qloballaşma dedikdə, texniki nailiyyətlər və qeyri tənzimlənmə ilə müəyyən edilən maliyyə bazarlarındakı investisiyalarla şərtlənən beynəlxalq miqyaslı proses başa düşülürdü «Qloballaşma» anlayışının etimoloji mənasının əsasında ingilis sözü olan globe – yer kürəsi – durur. Bu cür məna qloballaşma anlayışını bütövlük, vahidlik, ümumdünyəvilik mənalarında işlədilməsi və təhlil olunmasına heç bir problem yaratmır. Qloballaşmanın etimoloji mənasının təhlili tədqiqatçılar arasında kəskin elmi mübahisələrə səbəb olmasa da, onun bir termin və ya anlayış kimi yaranması, elmi dövriyyəyə gətirilməsi və konseptual əsasları haqqında ciddi fikir ayrılıqları mövcuddur. Bu anlayışı tarixi siyasi aspektdə müxtəlif dövrlərə aid etsələr də, bir fenomen kimi qloballaşma XX əsrin 60-70-ci illərinə meydana gəlmişdir. Məhz ona də, XX əsri qloballaşma əsri kimi səciyyələndirilir.

Qeyd edilir ki, qloballaşma anlayışının elmi akademik status qazanmasını ingilis alimi Roland Robertsonun adı ilə bağlayırdılar. O, 1983-cü ildə ilk dəfə «qloballaşma» terminini işlətmiş, 1985-ci ildə isə onun geniş tərifini vermişdir.

Mahiyyət baxımından qloballaşmanın əsas xüsusiyyətləri bu cür ümumiləşdirilir:

– İnsanların həyat fəaliyyətinin müxtəlif sferalarında ölkələrin və xalqların artan qarşılıqlı əlaqə və qarşılıqlı asılılığı kimi, bu isə perspektivdə və son nəticədə insanların planetar həmbirliyinin təsir edilməsi və bütöv dünyanın formalaşmasına aparıb çıxarır.

– Ümumdünya maliyyə iqtisadi məkanın, planetar miqyaslı bazarın yaranması, ayrı-ayrı iqtisadiyyatların hamı üçün ümumqaydaların fəaliyyət göstərdiyi qlobal sistemlə qovuşması;

– Yeni kompüter və media texnologiya, qlobal televiziya, İnternet bazarı əsasında ümumdünya ünsiyyət şəbəkəsinin yaradılmasına aparan informasion inqilabı;

– Dövlətlərin funksiyalarının dəyişilməsi prosesi, milli sərhədlərin sökülməsi, dövlətüstü təşkilatların və transmilli birliklərin fəaliyyət miqyasının və rolunun əhəmiyyətli şəkildə güclənməsi;

– Dünyanın homogenləşməsi və universallaşması, avroatlantik sivilizasiya tərəfindən işlənmiş liberal demokratik və sosial mədəni dəyərlər sisteminin gündən-günə yayılması;

– Qlobalizmin ideologiya və siyasət forması, birqütblülük prinsipi üzərində yeni dünya düzənini formalaşdırmaq naminə obyektiv prosesləri subyektiv məqsədlər üçün istifadə etməyə cəhd göstərmək.

**Birinci fəslin "Qlobal siyasi proseslər böyük dövlətlərin maraqlarında"** üçüncü yarımfəslində qlobal siyasi proseslər beynəlxalq münasibətlərin mərkəzi elementi kimi nəzərdən keçirilərək, qeyd edilir ki, Qlobal siyasi proseslər obyektiv olaraq, milli hökumətlərin əhəmiyyətini azaltsa da, milli suverenliyin davamlılığı kifayət qədər möhkəmdir. Qlobal proseslərin praktiki məqamları daha çox onu həyata keçirən böyük dövlətlərin maraqları əsasında təyin olunur. Beynəlxalq münasibətlər sistemi formalaşdığı dövrdən başlayaraq, böyük maraqlardan çıxış edən qüdrətli dövlətlərin mübarizə və qarşıdurma meydanına çevrilmişdir, kiçik və zəif dövlətlər isə bu mübarizə və müharibələrin ağrı və acısını öz üzərilərində hiss etməli olublar. XX əsrin 60-cı illərində Aron R. haqlı olaraq heç bir beynəlxalq sistemin hələ heç vaxt bərabər olmadığını və heç vaxt da olmayacağını söyləmişdi. Bu isə çox vaxt kiçik dövlətlərin böyük dövlətlərin maraqlarının qurbanına çevrilməsi ilə nəticələnirdi.

Müasir dövrdə qlobal siyasi proqseslər daha çox «amerikanlaşma» kimi təqdim olunur ki, bu da dünyada ABŞ-ın XX əsrin ortalarından başlayaraq qlobal hökmranlıq və hegemonluq mövqeyinin güclənməsi ilə bağlıdır. Bu dövrdə artıq Qərbi Avropa yönümlü qloballaşma öz aparıcı rolunu itirməyə başlayırdı. Məhz həmin dövrdən başlayaraq ABŞ öz gücündən və nüfuzundan istifadə edərək qlobal hegemonluq uğrunda mübarizəyə başlayır. Tədqiqatçıların fikrincə, amerikansayağı qloballaşma 1823-cü ildə ABŞ konqresi tərəfindən qəbul edilən «Monro doktrinası»ndan başlayır. Bu doktrina ABŞ-a qərb yarımkürəsini öz təsir dairəsinə salmağa kömək etdi. XIX əsrin sonlarında ABŞ xarici siyasətdə «açıq qapı» doktrinasını elan etdi. Bu doktrinanın əsasında ABŞ-ın digər ölkələrin iqtisadi məkanına daxil olması və bu iqtisadi məkanı öz iqtisadi maraqlarına tabe etməsi dururdu. T.Ruzvelt həmçinin qeyd edirdi ki, ABŞ qərb yarımkürəsində jandarm rolunu öz üzərinə götürür və öz imperiya ağalığını, iqtisadi imperializm siyasətini qorumaq və möhkəmləndirməkdən ötrü «böyük dəyənək»dən istifadə edəcəkdir. R.Ruzveltin «Monro doktrinası»na etdiyi əlavəsi Qərb yarımkürəsini ABŞ-ın iqtisadi imperiyasına çevirdi.

II Dünya müharibəsindən sonra ABŞ-ın dünya hegemonluğu ideyasını həyata keçirməsi üçün əlverişli beynəlxalq şərait yarandı ki, amerikan ideoloqları bu vəziyyətdən bacardıqca da faydalı şəkildə yararlanmağa çalışırdı. «Marşal planı», «Trumen doktrinası», « Eyzenhauer doktrinası» kimi sənədlər artıq ABŞ-ın Avropanın və Asiyanın işlərinə qarışmağa və bura söz sahibi olmağa cəlb edirdi. Xüsusən də Avropanın II Dünya Müharibəsindən sonrakı dövrdə yaşadığı iqtisadi dağınıqlıq anı ABŞ-ın planlarına müvəqqəti olsa da tabe olmağa vadar edirdi. Artıq ABŞ öz inkişaf yolunu yeganə çıxış yolu olaraq dünya dövlətlərinə qəbul etdirməyə çalışırdı. ABŞ beynəlxalq siyasi nüfuzundan istifadə edərək öz inkişaf və həyat tərzini dünyanın bütün regionlarında qəbul etdirməyə çalışırdı. Bunu müxtəlif üsullarla həyata keçirirdi. Bu üsullar içərisində daha çox konsensus və kompromis yollarını hallandırırlar. ABŞ öz qlobal dünya hegemonluğunu məhz konsensus və kompromis əsasında qurulduğunu nümayiş etdirməyə çalışır.

Müasir dövrdə qlobal dünya hegemonluğuna can atan hər bir fövqəldövlət qarşısında duran əsas məsələ daima öz statusunu təsdiq etmək, öz hərbi güc və iradəsinin nümayişi üçün yeni forma, vasitə və istiqamətlər aramaqdan ibarətdir. Bu yarımfəsildə əsaslandırılır ki, amerikanin hegemonluğu altında həyata keçirilən qloballaşma yaxın gələcəkdə ciddi mənfi nəticələrə gətirib çıxara bilər. Bir sıra tanınmış tədqiqatçıların fikrincə, bu cür qloballaşma dünyanın ABŞ-ın nəzarəti altında idarə edilməsini şərtləndirəcəkdir. Bu mənfi hal kimi qiymətləndirənlər arasında əsasən rusiyalı tədqiqatçılar üstünlük təşkil edirlər.

Birinci fəslin üçüncü yarımfəslində Rusiyanın da qlobal siyasi proseslərə təsiretmə cəhdləri ətrafında təhlillər aparılaraq, nəzərə çatdırılır ki, Rusiyanın hegemonluq yolunda atdığı əsas nəzəri geosiyasi addım avrasiyaçılıqdır. Avrasiyaçılıq bir doktrina kimi Sovet İttifaqının dağılmasından sonra meydana çıxmışdır.

XXI əsrin əvvəllərindən başlayaraq dünyada baş verən proseslər birqütblü dünya ideyasının iflasa uğradığını göstərir. Artıq baş verən proseslər yeni dünya düzəninin yaradılmasını tələb edir. III minilliyin əvvəllərində baş verən ABŞ-Əfqanıstan, ABŞ-İraq, ABŞ-İran Rusiya Gürcüstan qarşıdurmaları fonunda bir dövlətin öz iradəsini başqalarına diktə etmək cəhdləri öz gücünü və cazibədarlığını itirməyə başlayır. 2008-ci ildə baş verən qlobal dünya böhranı bu prosesə xüsusi təkan verdi. beynəlxalq tədqiqatçılarda artıq çoxqütblü dünya və yaxud «çoxmərkəzli dünya» anlayışları özünə geniş yer tapmağa başlayır.

**Dissertasiyanın ikinci fəsli "Müasir dövrdə qlobal-siyasi proseslər və mili dövlətin nisbəti problemi"** adlanır. Bu fəslin **"Müasir qlobal siyasi proseslər mühitində milli dövlətlərin yeri və inkişaf perspektivləri"** adlanan birinci yarımfəslində qloballaşma şəraitində milli dövlətlərin vəziyyəti, onların üzləşdikləri problemlər ətrafında müzakirələr aparılır. Qeyd edilir ki, "qloballaşma və milli dövlət qarşıdurması" müasir dövrdə siyasi elmin əsas problemlərindən biridir. Əsaslandırılır ki, qloballaşma bizim dünyanın təşkili haqqındakı ənənəvi təsəvvürləri dəyişir. Qloballaşma ideyası qeyri dövlət strukturlarının milli dövlətdən daha mühüm rol oynadığını iddia edərək, dünyada baş verən proseslər və milli dövlətin aliliyi haqqında ənənəvi təsəvvürlərə qarşı çıxır. Qeyri-dövlət strukturlarının kapitalın valyuta kursunun dəyişməsi, iş yerlərinin yaradılması və yaxud ləğvi kimi fəaliyyəti bu və ya digər dövlətdə yaşayan insanların maraqlarına toxunur, eyni zamanda dövlətin nəzarətindən çıxır. Hər hansı bir qlobal hərəkat milli dövlətin nəzarət edə bilmədiyi sferaya keçməklə onun suverenliyinə toxunur.

Üçüncü yarımfəsildə qloballaşma şəraitində milli dövlətlərin dəyişən rolu və yerinə dair müxtəlif yanaşmaların təhlilinə geniş yer verilir. Məsələn, amerikan tədqiqatçısı F.Bobbit yazır ki, milli dövlətlər yeni

bazar – dövlətlər qaydası ilə əvəzlənmişdir. Burada funksiyaların əsas hissəsi xüsusi sektorun idarə edilməsinə verilir, əhali isə tənzimləmədən daha çox bazar mexanizmi və stimullarına önəm verir. Skeptiklər XIX əsrdən başlanan əmtəə, investisiya və məhsuldar qüvvələrin dünya axınını təhlil edərək belə bir nəticəyə gəlirlər ki, iqtisadi qarşılıqlı asılılığın müasir səviyyəsi hüdudsuz deyildir. Ona görə də, skeptiklər müasir qloballaşmanın səviyyəsinin həddən artıq şişirdildiyini söyləyirlər. Əslində müasir ticarət blokları əvvəldən daha zəifdir, dünya XIX əsrin 90-cı illəri ilə müqayisədə daha az asılıdır. Skeptiklərin fikrincə, milli hökumətlərin hakimiyyəti güclənir, qloballaşmanın hərəkətverici qüvvəsi dövlət və bazarlardır. Bu dövrdə dominantlıq edən motiv milli maraqlardır.

İkinci fəslin birinci yarımfəslində belə bir qənaətə gəlinir ki, qloballaşma dünya proseslərinin ümumi nizamına, iqtisadiyyata, siyasətə və sosial-mədəni məkana yeni düzəlişlər edir. Politoloqların dövlətin funksiyaları adlandırdıqları metofaraların bəzən dəyişməsinə, dövlətçiliyin formalarının, xarakterinin, keyfiyyət və mənasının zaman-zaman təkmilləşməsinə baxmayaraq, bir məsələ şəksizdir: istənilən dövlətçiliyin əsasını onun milli mənafeyi və ideyalı bir-birini tamamlayan və millətinin dövlətin inkişaf və tərəqqisini əvvəlcədən müəyyənləşdirən iki amil təşkil edir.

**İkinci fəslin ikinci yarımfəsli "Qloballaşma və suverenlik: qarşılıqlı təsir mexanizmləri və ziddiyəti"** adlanır. Bu yarımfəsildə qloballaşma prosesinin milli dövlətlərin suverenliyinə təsiri və buna əks reaksiyalar tədqiq edilir. Qeyd edilir ki, qlobal siyasi proseslər şəraitində milli dövlətlərə təsir mexanizmlərinin əsas istiqaməti milli suverenliyin məhdudlaşdırılmasından keçir ki, bu da müasir siyasi elmlər sistemində suverenliyin qloballaşma və yeni dünya nizamı çərçivəsində tədqiqini aktuallaşdırır. İlkin olaraq suverenlik məhfumunun təbiətinə aydınlıq gətirilir. Nəzərə çatdırılır ki, «suverenlik» anlayışı mürəkkəb və çoxmənalıdır. Beynəlxalq münasibətlərin, bu və ya digər dövlətlərin siyasi sistemlərinin dəyişməsi ilə əlaqədar suverenliyin də məzmunu dəyişməkdə davam edir.

Siyasi elmdə «suverenlik» anlayışı altında dövlətin tam müstəqilliyini ifadə edən əlamət nəzərdə tutulur. Bu sərbəstlik dövlətin daxili siyasətdə aliliyi və xarici siyasətdə müstəqilliyi ilə ifadə olunur.

Əsaslandırılır ki, XX əsrin 90-cı illərindən başlayaraq praktikada suverenliyin müxtəlif amillər vasitəsilə məhdudlaşdırılmasının şahidi oluruq. Bu dövrdən başlayaraq mili dövlətlərin suverenliyi prinsipi ikinci plana keçməyə başlayır və siyasi nəzəriyyələrdə mili suverenliyin transformasiyası və hətta məhv olması problemləri özünə geniş yer tapmağa başlayır. Müasir qloballaşma şəraitində mili suverenliyin rolunun məzmun və mahiyyət etibarilə dəyişməsini, transformasiyasını heç kim inkar edə bilməz.

İkinci fəslin ikinci yarımfəslində qeyd edilir ki, milli dövlət muxtariyyatının və suverenliyinin, həmçinin buna uyğun olaraq, sərhədlərin mahiyyətinin zəifləməsi bir neçə əsas formada baş verəcək: Birincisi, əvvəllər mili hökumətlərə öz ölkələrinin sərvətləri üzərində nəzarəti həyata keçirməyə imkan verən gömrük və valyuta sərhədləri dağılmağa başlayacaq; İkinci, əsas diqqət mili sərhədləri tanımayan daha çevik bazar və kredit kanallarını formalaşdıra biləcək istehsala yönələcək; Üçüncü, Beynəlxalq əmək bölgüsünün dərinləşməsi və genişlənməsi total, sosial və iqtisadi cəhətdən yoxsul ölkələrdən kütləvi müasir axını ilə müşaiyət olunacaq ki, bu da iqtisadi rifahı yüksək olan ölkələrdə siyasi sərhədlərin aradan qaldırılması üçün növbəti səbəb olacaq**.**

**İkinci fəslin üçüncü yarımfəsli "Milli dövlət quruculuğu və inteqrasiya prosesləri müasir Azərbaycan müstəvisində"** adlanır. Bu yarımfəsildə həmçinin qloballaşma şəraitində Azərbaycan dövlətinin vəziyyəti ətrafında da geniş təhlillər aparılır. Qeyd edilir ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdiyi dövrdən müstəqil siyasət, milli maraqların qorunması, milli ləyaqət, milli qürur, milli və dini tolerantlıq milli dövlət siyasətinin əsas təməl prinsiplərinə çevrilmişdir. Məhz qloballaşma və inteqrasiya proseslərinin alternativsiz amili kimi dövlətin özünü təsdiq etməsi əldə etdiyimiz uğurların səbəbi kimi giymətləndirilə bilər. Nəzərə çatdırılır ki, qloballaşma şəraitində Azərbaycanın prioriteti biliklərə əsaslanan cəmiyyətin (knowledge based society) qurulması üçün yeni texnologiyaların tətbiqinə və milli mədəniyyətimizin qorunmasına nail olmaqdır. Bu istiqamətdə "qərb texlogiyaları – milli ruh" mövqeyindən çıxış etməyimiz mütləqdir, əks halda "kor-koranə qərbləşmə " cəmiyyətimizin inkişafına ciddi əngəllər törədə bilər. Bu anlamda biz prioritetlərimiz ətrafında sıx birləşməli , milli ideyanı milli konsolidasyanın əsas təkanverici qüvvəsinə çevrilməliyik.

Heydər Əliyev deyirdi ki: Qloballaşma davamlı inişafın təmin olunmasına, dövlətin müstəqilliyinə, idarəetmə sistemlərinin sabitliyinə dəstək olmalı, iqtisadi münasibətlərdə ayrı seçkiliyin aradan qaldırılmasına, xalqın rifahının artırılmasına imkan yaratmalıdır. Heydər

Əliyev siyasi kursu yüksək dövlət idarəçiliyi fəlsəfəsinə əsaslanaraq, milli müstəqilliyi əldə saxlamağı və möhkəmləndirməyi, dövlətçilik ənənələrini formalaşdırmaq və siyasi sabitliyi təmin etməklə yeni siyasi infrastruktur əsasında möhkəm siyasi sistem yaratmağa müyəssər oldu. Milli tariximizin bu dövrü milli dövlətçilik qurulması üçün o vaxt zəruri olan qətiyyətli etotist yanaşmanın əsası, başlıca mənbəyi olmuş, bu yanaşmanın bazis konsepti isə Azərbaycan cəmiyyətinin siyasi, iqtisadi və sosiomədəni modernləşməsinin prioritet komponenti kimi Realpolitik çıxış etmişdir.

Bu yarımfəsildə həmçinin əsaslandırılır ki, Azərbaycan tarixən öz coğrafi geostrateji mövqeyi ilə Şərq və Qərb mədəniyyətlərinin qovşaq məkanı olmuşdur. Mədəniyyətimizə xas olan qarşılıqlı təsirlərə açıq olmaq xüsusiyyəti buradan irəli gəlir. Qlobal təsirləri indi duyan bəzi mədəniyyətlərdən fərqli olaraq Azərbaycanda bu proses təbii tarixi xarakter daşıyır, özünü təcrid variantı bizim mədəniyyətimiz üçün heç vaxt spesifik olmamışdır. Mədəniyyətlərarası dialoqun genişləndirilməsi və inkişaf etdirilməsində müstəqil Azərbaycan Respublikası da özünəməxsus rol oynamaqdadır. Azərbaycanda bu mötəbər missiyanın həyata keçirilməsində respublikamızın birinci xanımı Mehriban Əliyeva-nın rəhbərliyi altında «Heydər Əliyev Fondu» xüsusilə fərqlənməkdədir. Milli mədəniyyətimizin beynəlxalq aləmə tanıtmaqda, milli-mənəvi dəyərlərimizin təbliğində, mədəniyyətlərin qarşılıqlı təsir və qarşılıqlı fəaliyyətin həyata keçirilməsində, milli mədəniyyətimizin yeni mədəniyyət məkanına özünəməxsusluğunu saxlamaqla düzgün inteqrasiyasında misilsiz xidmətlər göstərmişdir.

Milli inkişaf strategiyası qloballaşan dünyada mövcud ictimai-siyasi, iqtisadi durumun müəyyənləşdirilməsi və strateji prioritetlərin hədəfə alınması, konkret nəticələrin əldə edilməsi üçün mövcud resurs və potensialın səfərbər edilməsini təmin edir. Yeni dünya düzəninin formalaşması prosesində milli maraqların reallaşdırılmasını təmin edən siyasi kursun, Azərbaycanın qlobal sistemdə yeri, rolu və mövqeyinin tanınması və daha qətiyyətlə dəstəklənməsi məqsədinə istiqamətləndirir. Bununla da Azərbaycan beynəlxalq münasibətlər sistemində öz milli inkişaf srategiyasının əsas prinsiplərini düzgün müəyyənləşdirərək, qlobal dünya məkanında söz sahibi olaraq öz layiqli yerini tuta bildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin söylədiyi kimi «Dünyada hər şey qarşılıqlı bağlılıq təşkil edir. Bunu bütün ölkələr nəzərə almalıdır. Dünya cəmiyyətinə biganə qalmaq, ona sayğısızlıq göstərmək heç bir yaxşı nəticəyə gətirib çıxara bilməz. Bəli, bu reallıqları biz nəzərə almalıyıq. Lakin öz taleyimizi yalnız özümüz həll edirik».

Dissertasiyanın «**Nəticə**» hissəsində tədqiqata yekun vurulmuş, elmi-analitik ümumiləşdirilmələr aparılmış, habelə problemin həlli ilə bağlı fikirlər, nəzəri və praktik xarakterli təklif və tövsiyyələr irəli sürülmüşdür. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, qlobal siyasi proseslər şəraitində milli dövlətlər özlərinin aparıcı yollarını əsasən saxlamaqdadırlar.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Demokratiya nədir? // AMEA-nın Gəncə Regional Elmi Mərkəzi. Gəncə -2006, səh.117-121.
2. Demokratiyanın anlayışı və mahiyyəti // GDU-nun Elmi xəbərlər humanitar və təbiyyət elmləri seriyası, №1 Bakı – 2006, səh.58-60.
3. Qloballaşmanın anlayışı və mahiyyəti // Tarix və onun problemləri BDU-nun Xüsusi buraxılışı, Bakı -2009, səh.199-204.
4. Qlobal siyasi proseslər çoxqütblü beynəlxalq münasibətlər fonununda // BDU-nun xəbərləri №4 Humanitar elmlər seriyası. Bakı – 2009, səh.140-146.
5. Qloballaşma şəraitində milli suverenlik məsələsi //PDU-nun Humanitar elmlər seriyası №3 Bakı – 2010, səh.152-157.
6. Qloballaşma bəşəriyyətin tarixi inkişaf kontekstində // Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq İnstitutu. Dirçəliş XX əsr. Bakı 145-146/2010, səh-230-237.
7. Müasir Azərbaycan milli ideya və qlobal dəyərlərin məkanı kimi // AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu "Heydər Əliyev Məktəbi"nin 88-ci ildönümünə həsr edilmiş Ümumrespublika Elmi-Praktiki Konfransının materialları. Bakı-2012, səh.109-117.
8. Национальное государственное устройство Азербайджана и его взаимосвязь с интеграционными процессами в мире // Национальный Педагогический Университет имени М.П.Драгмова. Украинская Академия Наук «Гилея», выпуск 60(№5) Киев – 2012, стр. 756-761.
9. Геополитика Азербайджанской Республике в мире в современных условиях //МГУ Материалы Международной Научно-Практической Конференции «Социально-Философские Проблемы» Москва -2012, стр. 184-194.

*Самир Тофик оглу Джафаров*

**Вопрос национальных государств и их суверенитета в условиях современных глобальных политических процессов**

**Резюме**

Диссертационная работа состоит из введения, двух глав, шести параграфов, заключения и списка использованной литературы.

В первой главе – «Теоретико-методологические основы исследования национального государства и глобальных политических процесс» отмечается, что в появлении и развитии национального государства категории «нация» и «государство» по отдельности имеют особое значение. Некоторые исследователи воспринимают государство как объект, техническую структуру которого используют субъекты. В качестве субъектов выступают нации, племена, кланы, группы людей и индивиды. Государство – это средство и инструмент выполнения обязанностей. В условиях национального государства нация поставляет перед государством обязанность и используя государство как инструмент оптимизация выполнения этих обязанностей, сам решает эти вопросы. Большинство национальных обязанностей связано с распределением жизненного пространства. Государство основным инструментом жизненного пространства.

Во второй главе – «Соотношение глобально-политических процессов и национального государства обосновывается, что в процессе глобализации особое место имеет интернационализация различных отраслей общественной жизни. В большинстве случаев глобализация воспринимается в качестве высшего уровня интернационализации. В основном развитие глобализации обуславливает коммуникационная и информационная революция. Сущность глобализации заключается в идеи формирования глобального единства.

Также отмечается, что в условиях глобализации приоритетом Азербайджана является достижение применения новых технологий и обеспечение сохранения национальной культуры. Это должно обуславливать формирование нового общества, основанного на знаниях.

В заключении подведены итоги исследовательской работы. Здесь делаются научные обобщения и выдвигаются конкретные тезисы, связанные с новой ролью национальных государств в условиях глобальных политических процессов. Отмечается, что национальное государство и в новых условиях сохранило свою решающую роль.

***Samir Tofig Jafarov***

**Issue of national states and their sovereignty under the conditions of modern global political processes**

**Summary**

Thesis work consists of introduction, two chapter, six paragraphs, conclusion and list of used literature.

In Introduction is settled actuality of thesis topic, analyzed the level of the problem scientific development, determined objectives and goals, object and subject of research. Also included settlement of theoretical and practical importance of work.

In the first chapter is settled "theoretical and methodological basis of researches of "national states and global politic processes".

In the second chapter - "Interrelation of global and political processes and national state", and that in the process of globalization has a special place internationalization of various branches of public life. In most cases, globalization is perceived as a higher level of internationalization. Basically, the development of globalization causes the communication and information revolution. The essence of globalization is the idea of a global unity.

Also noticed, that with the globalization of Azerbaijan priority is to achieve the application of new technologies and ensuring the preservation of the national culture. This should cause formation of a new society based on knowledge. In conclusion you can see summarizes of research work. It`s made scientific generalizations and shown specified thesis, related with new role of national states under the conditions of modern global political processes.

It`s noticed that national state have saved it`s decisive role under new conditions.